

Bağırov Eşqin Rafiq oğlu 1991-ci il aprelin 1-də Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. Azərbaycan Ordusunun kiçik çavuşu olan Eşqin Bağırov Vətən müharibəsi zamanı Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə iştirak edib. Sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. 29 sentyabr 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən rayonunun Xoşbulaq kənd qəbiristanlığında dəfn olunub. Özündən sonra iki övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "İgidliyə görə", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**BAĞIROV EŞQİN RAFİQ OĞLU**

**01.04.1991-29.09.2020**





Alıyev Vahid Abbas oğlu 1989-cu il fevralın 18-də Daşkəsən rayonunun Alunitdağ qəsəbəsində anadan olub. Azərbaycan Ordusunun giziri olan Vahid Alıyev 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Vahid Alıyev sentyabrın 30-da qəhrəmancasına şəhid olub. 02 oktyabr 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Özündən sonra iki övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Cəsur döyüşçü", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**ALIYEV VAHİD**

**ABBAS OĞLU**

**18.02.1989-02.10.2020**





Quliyev Elvin Amil oğlu 2001-ci il iyulun 24-də Daşkəsən rayonunun Əhmədli kəndində anadan olub. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Elvin Quliyev Füzuli istiqamətində gedən döyüşlərdə savaşıb. 2020-ci il oktyabrın 1-i Füzuli rayonunun azadlığı uğrunda aparılan döyüşdə şəhidlik zirvəsinə ucalıb. 02.10.2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Subay olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra “Vətən uğrunda” və ”Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**QULİYEV ELVİN AMİL OĞLU**

**24.07.2001-02.10.2020**





Abdullayev Şəhriyar Kamil oğlu 1987-ci il martın 2-də Tərtər rayonunun Cəmilli kəndində anadan olub. Azərbaycan Ordusunun kiçik giziri olan Şəhriyar Abdullayev 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Şəhriyar Abdullayev oktyabrın 12-də Hadrut döyüşləri zamanı şəhid olub. 13 oktyabr 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Özündən sonra iki övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**ABDULLAYEV ŞƏHRİYAR KAMİL OĞLU**

**02.03.1987-13.10.2020**





Abbasov Tacəddin Vüqar oğlu 2001-ci il dekabrın 10-da Daşkəsən şəhərində anadan olub. Azərbaycan Ordusunun əsgəri olan Tacəddin Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşaraq oktyabrın 24-də Füzuli döyüşləri zamanı şəhid olub. 26.10.2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Cəsur döyüşçü", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və ilə təltif edilib.

**ABBASOV TACƏDDİN VÜQAR OĞLU**

**10.12.2001-26.10.2020**






Şıxıyev Orxan Raqif oğlu 1989-cu il sentyabrın 29-da Daşkəsən rayonunun Dəstəfur kəndində anadan olub. Azərbaycan Ordusunun əsgəri olan Orxan Şıxıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Şıxıyev oktyabrın 24-də Şuşa döyüşləri zamanı şəhid olub. 02.11.2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Ailəli idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra “Vətən uğrunda” və ”Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**ŞIXIYEV ORXAN RAQİF OĞLU**

**29.09.1989-02.11.2020**





Cabbarov Muraz İlham oğlu 2000-ci il martın 7-də Daşkəsən rayonunun Zağalı kəndində anadan olub. 2018-ci ildə hərbi xidmətə başlayan Muraz Cabbarov xidmətini Xüsusi Təyinatlı Qüvvələrdə davam etmişdir. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Muraz Cabbarov Füzuli və Kəlbəcər döyüşlərində vuruşub. 10 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur. 2 noyabr 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn edilib. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Cəsur döyüşçü", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**CABBAROV MURAZ İLHAM OĞLU**

**07.03.2000-02.11.2020**





**MƏMMƏDOV SƏRXAN SAHİL OĞLU**

**09.05.2001-04.11.2020**

Məmmədov Sərxan Sahil oğlu 09 may 2001-ci ildə Daşkəsən rayonunun Qabaqtəpə kəndində dünyaya gəlib. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd döyüşlərində vuruşub. Sərxan Məmmədov noyabrın 3-də Xocavənd rayonunda gedən döyüşdə aldığı qəlpə yarası nəticəsində şəhid olub. 04.11.2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn edilib. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə" və “Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





İsmayılov Novruz Nurəddin oğlu 1987-ci il oktyabrın 13-də Daşkəsən rayonunun Zinzahal kəndində anadan olub. Azərbaycan Ordusunun giziri olan Novruz İsmayılov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. O, oktyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. 08 noyabr 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Özündən sonra bir övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Cəsur döyüşçü", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**İSMAYILOV NOVRUZ NURƏDDİN OĞLU**

**13.10.1987-08.11.2020**






Abbasov Möhlət Eldəniz oğlu 19 mart 2001-ci ildə Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 27 sentyabr 2020-ci ildə başlayan Vətən Müharibəsinə qoşulan Möhlət Abbasov düşmənə qarşı igidliklə, mərdliklə vuruşaraq 6 noyabr 2020-ci ildə Şuşanın Daşaltı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 09.11.2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra “Cəsur döyüşçü”, “Vətən uğrunda”, "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

**ABBASOV MÖHLƏT ELDƏNİZ OĞLU**

**19.03.2001-09.11.2020**





İbrahimov Mübariz Telman oğlu 14 yanvar 1990-cı ildə Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olmuşdur. 2014-cü ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi çalışırdı. Azərbaycan Ordusunun əsgəri olan Mübariz İbrahimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində tankçı olaraq iştirak etmişdir. Mübariz İbrahimov 8 noyabr 2020-ci ildə Xocavənd rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 11.11.2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "İgidliyə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**İBRAHİMOV MÜBARİZ TELMAN OĞLU**

**14.01.1990-11.11.2020**





Əhmədov Əhmədxan Məzahir oğlu 1 fevral 1999-cu ildə Daşkəsən rayonunun Quşçu kəndində anadan olub. Əhmədxan Əhmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd və Şuşa döyüşlərində vuruşub. O, Naxçıvan MR-da "N" saylı hərbi hissənin kəşfiyyat bölüyündə xidmət edib. 2020-ci ildə noyabrın 9-da Şuşa rayonu istiqamətində gedən döyüş əməliyyatlarında şəhid olub. 12.11.2020-ci il tarixdə böyük izdihamla Göygöl rayonunun Murovdağ qəsəbə qəbiristanlığında dəfn edilib. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra “Azərbaycan bayrağı” ordeni və “Vətən uğrunda”, "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

**ƏHMƏDOV ƏHMƏDXAN MƏZAHİR OĞLU**

**01.02.1999-12.11.2020**





İsrəfilov Vidadi Vaqif oğlu 18 iyun 1987-ci ildə Daşkəsən rayonunun Gurbulaq kəndində anadan olmuşdur. Doğulduğu kənd ümumi orta məktəbinin müəllimi olmuş şəhid Vidadi İsrəfilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Şuşa şəhərlərinin işğaldan azad edilməsində iştirak edib. Qəhrəman müəllimimiz 10 noyabr 2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olub. 12 noyabr 2020-ci il tarixdə böyük izdihamla Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir. Özündən sonra iki övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**İSRƏFİLOV VİDADİ VAQİF OĞLU**

**18.06.1987-12.11-2020**





Abdullayev Həsən Qərib oğlu 21 iyun 1994-cü ildə Daşkəsən şəhərində doğulmuşdur. 8 sentyabr 2020-ci il tarixdən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi fəaliyyətə başlamış, daha sonra isə könüllü olaraq Xüsusi Təyinatlı Qüvvələrdə xidmətini davam etdirmişdir. 27 sentyabr 2020-ci il tarixdə Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını almaq, işğal altında olan torpaqlarımızın azadlığını təmin etmək məqsədilə Vətən müharibəsində iştirak etmişdir. 6 noyabr 2020-ci ildə Daşaltı kəndinin azad edilməsi uğrunda gedən döyüşlərdə həlak olmuşdur. Şəhid Abdullayev Həsən Qərib oğlu 12 noyabr 2020-ci ildə böyük izdihamla Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra “Döyüşdə fərqlənməyə görə”, “Vətən uğrunda” və “Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**ABDULLAYEV HƏSƏN QƏRİB OĞLU**

**21.06.1994-12.11.2020**





**MƏMMƏDOV TURAL TARİYEL OĞLU**

**05.11.1999-12.11.2020**

Məmmədov Tural Tariyel oğlu 1999-cu il noyabrın 5-də Daşkəsən şəhərində anadan olub. Azərbaycan Ordusunun əsgəri olan Tural Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Tural Məmmədov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. 12.11.2020-ci il tarixdə Abşeron rayonunun Mehdiabad qəsəbə qəbiristanlığında dəfn edilmişdir. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.





İsmayılov Tural Nürəddin oğlu 1999-cu il martın 10-da Daşkəsən rayonunun Zivlan kəndində anadan olub. Azərbaycan Ordusunun əsgəri olan Tural İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı noyabrın 8-də Şuşa döyüşlərində şəhid olub. 16.11.2020-ci il tarixdə böyük izdihamla Gəncə Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**İSMAYILOV TURAL NÜRƏDDİN OĞLU**

**10.03.1999-16.11.2020**





**BƏXTİYAROV ORXAN SƏRVƏR OĞLU**

**13.09.1991-16.11.2020**

Bəxtiyarov Orxan Sərvər oğlu 1991-ci il sentyabrın 13-də Daşkəsən şəhərində anadan olub. Azərbaycan Ordusunun əsgəri olan Orxan Bəxtiyarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşa istiqamətində gedən döyüşlərdə vuruşub və noyabrın 8-də şəhid olub. 16.11.2020 ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Özündən sonra iki övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





Tağıyev Asif Zakir oğlu 1985-ci il fevralın 23-də Daşkəsən şəhərində anadan olub. Azərbaycan Ordusunun kiçik çavuşu olan Asif Tağıyev 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə vuruşub. Asif Tağıyev oktyabrın 3-də Murovdağ döyüşləri zamanı şəhid olub. 18.11.2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanıda dəfn olunub. Özündən sonra üç övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra ”İgidliyə görə”, “Vətən uğrunda” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

**TAĞIYEV ASİF ZAKİR OĞLU**

**23.02.1985-18.11.2020**





Tağıyev Ramid Yaqub oğlu 1994-cü il fevralın 25-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. Azərbaycan Ordusunun kiçik çavuşu olan Ramid Tağıyev 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə vuruşub. Ramid Tağıyev oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. 18.11.2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanıda dəfn olunub. Subay olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**TAĞIYEV RAMİD YAQUB OĞLU**

**25.02.1994-18.11.2020**





**MƏMMƏDOV ELNUR İSRƏFİL OĞLU**

**16.09.1989-23.11.2020**

Məmmədov Elnur İsrəfil oğlu 16 sentyabr 1989-cu ildə Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olmuşdur. Kəşfiyyatcı Elnur Məmmədov oktyabrın 2-də Kəlbəcər istiqamətində gedən döyüş zamanı düşmənin snayper gülləsinə tuş gələrək şəhid olmuşdur. Elnur Məmmədovun nəşi 49 gün neytral ərazidə qalmışdı. Elnur Məmmədov 23.11.2020-ci il tarixdə böyük izdihamla Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir. Özündən sonra iki övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra “İgidliyə görə”, “Vətən uğrunda” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.





Zeynalov Arzu Rövşən oğlu 1999-cu il martın 6-da Qazaxıstan Respublikasının Arşalınskiy rayonunun Qırmızı Göl kəndində anadan olub. 2020-ci ilin iyun ayından etibarən MAHHXHQ əsgər kimi yenidən xidmətə başlayıb. 2020-ci il oktyabrın 2-də Kəlbəcər rayonu istiqamətində şərti adı "Ağdağ" döyüş mövqeyi istiqamətində aparılan hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub. Arzu Zeynalov 24 noyabrın 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**ZEYNALOV ARZU RÖVŞƏN OĞLU**

**06.03.1999-24.11.2020**





Ələsgərov Pərviz Lətif oğlu 1984-cü il sentyabrın 27-də Daşkəsən şəhərində anadan olub. Azərbaycan Ordusunun kiçik çavuşu olan Pərviz Ələsgərov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə vuruşub. Pərviz Ələsgərov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. 24 noyabr 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Özündən sonra iki övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "İgidliyə görə", "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**ƏLƏSGƏROV PƏRVİZ LƏTİF OĞLU**

**27.09.1984-24.11.2020**





Verdiyev Röyal Qabil oğlu 1994-cü il avqustun 17-də Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. Döyüşlərə ehtiyatda olan əsgər kimi qatılıb və müharibə zamanı sürücü kimi hərbi xidmətini yerinə yetirib. Cəbrayıl, Qubadlı, Laçın rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşub. 29.11.2020-ci il tarixdə Laçın rayonunun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. 03.12.2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn edilib. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

**VEDİYEV RÖYAL QABİL OĞLU**

**17.08.1994-03.12.2020**





**BAĞIROV ELNUR SAHİB OĞLU**

**16.04.1993-06.12.2020**

Bağırov Elnur Sahib oğlu 1993-cü il aprelin 16-da Daşkəsən şəhərində anadan olub. İxtisasca hərbçi, peşəkar snayper idi. 2020-ci il oktyabrın 30-da Kəlbəcər rayonunun şərti adı "Üçtəpələr" olan döyüş mövqeyi istiqamətində aparılan hərbi əməliyyatlar zamanı şəhadətə yüksəlib. 06 dekabr 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





**ABDULLAYEV**
**MƏHƏMMƏD VAQİF OĞLU**

**19.04.1999-06.12.2020**

Abdullayev Məhəmməd Vaqif oğlu 1999-cu il aprelin 19-da Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olmuşdur. Məhəmməd Abdullayev Vətən müharibəsi zamanı Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 30.09.2020-ci il tarixdə şərti adı "Üçtəpələr" olan döyüş mövqeyi istiqamətində aparılan hərbi əməliyyatlar zamanı şəhid olub. Abdullayev Məhəmməd Vaqif oğlu 06.12.2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra ”Döyüşdə fərqlənməyə görə”, “Vətən uğrunda" və ”Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





**CƏFƏRLİ ORXAN ETİBAR OĞLU**

**16.02.1996-09.12.2020**

Cəfərli Orxan Etibar oğlu 1996-cı il fevralın 16-da Daşkəsən şəhərində anadan olub. Azərbaycan Ordusunun giziri olan Orxan Cəfərli 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə vuruşub. Orxan Cəfərli oktyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub. 9 dekabr 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Cəsur döyüşçü", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





Quluyev Elşən Natiq oğlu 1992-ci il dekabrın 21-də Daşkəsən şəhərində anadan olub. Azərbaycan Ordusunun kiçik çavuşu olan Elşən Quluyev 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə vuruşub. Elşən Quluyev oktyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub. 12 dekabr 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Özündən sonra iki övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda”, “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

**QULUYEV ELŞƏN NATİQ OĞLU**

**21.12.1992-12.12.2020**





İsmayılov Rüstəm Üzeyir oğlu 1995-ci il avqustun 29-da Daşkəsən şəhərində anadan olub. 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər istiqamətində gedən döyüşlərdə vuruşub. 01 oktyabr 2020-ci il tarixdə ağır döyüş əməliyyatları zamanı şəhidlik zirvəsinə ucalıb. 17 dekabr 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Subay olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra “Vətən uğrunda” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

**İSMAYILOV RÜSTƏM ÜZEYİR OĞLU**

**29.08.1995-17.12.2020**



Cəfərov Vüsal Saxləddin oğlu 1990-cı il martın 1-də Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub. Azərbaycan Ordusunun əsgəri olan Vüsal Cəfərov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində 01.10.2020-ci il tarixdə Kəlbəcər rayonu uğrunda aparılan döyüş əməliyyatları zamanı şəhid olub. 18.12.2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Özündən sonra iki övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə", medalları ilə təltif edilmişdir.



**CƏFƏROV VÜSAL SAXLƏDDİN OĞLU**

**01.03.1990-18.12.2020**





Sadıqov Rüfət Vaqif oğlu 13 noyabr 1995-ci ildə Daşkəsən rayonunun Quşçu kəndində anadan olub. 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Kəlbəcər istiqamətində gedən döyüşlərdə vuruşaraq oktyabr 1-də qəhrəmancasına şəhid olub. 19 dekabr 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn edilib. Subay olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**SADIQOV RÜFƏT VAQİF OĞLU**

**13.11.1995-19.12.2020**





Haxverdiyev Novruz Əli oğlu 25 mart 1996-cı ildə Daşkəsən rayonunun Alunitdağ qəsəbəsində anadan olmuşdur. Azərbaycan Ordusunun əsgəri kimi 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində atıcı olaraq iştirak etmişdir. Novruz Haxverdiyev 2 oktyabr 2020-ci ildə Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Uzun müddət ərazilərin minalanmış sahə və qarla örtülü olması səbəbindən nəşi tapılmayıb. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub. Novruz Haxverdiyev 19 yanvar 2021-ci il tarixdə böyük izdihamla Gəncə şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir. Özündən sonra bir övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçünAzərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra “Vətən uğrunda” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

**HAXVERDİYEV NOVRUZ ƏLİ OĞLU**

**25.03.1996-19.01.2021**





Vəkilov Elməddin Nizami oğlu 1988-ci il avqustun 21-də Daşkəsən şəhərində anadan olub. Azərbaycan Ordusunun baş əsgəri olan Elməddin Vəkilov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə vuruşub. Elməddin Vəkilov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət ərazilərin minalanmış sahə və qarla örtülü olması səbəbindən nəşi tapılmayıb. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub. Elməddin Vəkilovun nəşi 7 may 2021-ci ildə tapılaraq və 8 may 2020-ci il tarixdə böyük izdihamla Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Ailəli idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Şücaətə görə”, “Vətən uğrunda”, “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

**VƏKİLOV ELMƏDDİN NİZAMİ OĞLU**

**21.08.1988 - 08.05.2020**

